**M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası ilə Rusiya Dövlət kitabxanası arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında**

# SAZİŞ

## 1. Ümumi müddəalar

1.1. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası (AMK) və Rusiya Dövlət kitabxanası (RDK) Azərbaycan və Rusiya Federasiyasının milli kitabxanaları olaraq Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" qanununa və Rusiya Federasiyasının "Kitabxana işi haqqında" Federal qanununa əsaslanaraq koordinasiya və kooperasiya əsasında öz fəaliyyətini daha səmərəli həyata keçirmək üçün tərəfdaşlıq və əməkdaşlıq haqqında hazırki Sazişi bağlayırlar.

1.2. Bu Sazişin məqsədi - Azərbaycan və Rusiyanın vahid informasiya məkanının yaradılması məqsədilə kitabxana işini elm, mədəniyyət və təhsil sahələrinin inkişafı naminə hər iki milli kitabxanaların potensial imkanlarından istifadə etməkdən ibarətdir.

1.3. Saziş hər iki kitabxananın tərəfdaşlıq və əməkdaşlığında bərabərliyə, aşkarlığa, qarşılıqlı məlumatlandırmaya və Tərəflərin hüququna, ənənəsinə xüsusiyyətlərinə hörmətlə yanaşmasına əsaslanır.

1.4. Saziş aşağıdakılar vasitəsilə həyata keçirilir:

1.4.1. Birgə məqsədli və digər proqramların işlənməsi, ikitərəfli fəaliyyət zamanı illik və uzunmüddətli planların razılaşdırılması, hesabatların və başqa xidməti sənədlərin qarşılıqlı təqdim olunması.

1.4.2. Qarşılıqlı maraq daşıyan problemlərin müzakirəsi və birgə tədbirlərin keçirilməsi.

1.5. Saziş Azərbaycan Respublikası və Rusiya Federasiyasının hüquqi normalarına, AMK və RDK-nın Nizamnaməsinə əsaslanaraq, kitabxananın birgə fəaliyyətinin təşkilati məsələlərini tənzimləyir.

1.6. Bu Saziş Rusiya, Azərbaycan və digər xarici təşkilatlarla, əməkdaşlıq fəaliyyəti məqsədilə bağlanan digər sazişlərin həyata kecirilməsinə maneə ola bilməz.

## 2. Əməkdaşlığın əsas istiqamətləri

*2.1. AMK və RDK fondlarının birgə formalaşdırılması:*

2.1.1. Oxucuların tələbatını yerinə yetirmək məqsədilə Tərəflər kitab fondlarının komplektləşdirilməsində daimi qarşılıqlı köməyə razılaşırlar.

2.1.2. Hər bir kitabxananın fondunda artıq nüsxələr olarsa, hər hansı fonda olmayan sənədləri əldə etmək məqsədilə sənədlərin surəti vasitəsilə fondlarda boşluqları aradan qaldırırlar.

*2.2. Oxuculara xidmət və kitab təbliğində RDK və AMK birgə fəaliyyəti:*

2.2.1. Azərbaycan Respublikasının və Rusiya Federasiyasının hüquqi və normativ sənədlərinə əsaslanaraq, maraq göstərən tərəfin xahişini nəzərə alaraq, milli kitab abidələrinin mümkünlüyünə icazə verir və onun qorunmasını təmin edir, onların yenidən istehsalı məqsədilə mikrofilmləşdirilməsinə, rəqəmsal sistemin yaranmasına fürsət yaradır.

2.2.2. Rusiyada Azərbaycan kitablarının və Azərbaycanda rus kitablarının təbliği məqsədilə birgə tədbirlərin proqramını tərtib edir.

2.2.3. Milli diasporların və milli mədəni cəmiyyətlərin nümayəndələri ilə əlaqəni inkşaf etdirir, xaricdə yaşayan həmyerlilər üçün mədəni və dil müxtəlifliyinin inkişafı, kitabxana xidməti məqsədilə birgə layihələr işləyir və həyata keçirir.

2.2.4. İstifadəçilərə informasiya üçün tələbnamələri yerinə yetirmək məqsədilə məlumat bazalarına daimi girişi, AMK-nın bazası əsasında RDK-nın Virtual oxu zalının dissertasiyalarının elektron kitabxanası fəaliyyətini həyata keçirir.

*2.3. Mütəxəssislərin daimi professional təhsilində AMK və RDK birgə fəaliyyəti:*

2.3.1. Mütəxəssislərin mübadilə təcrübəsini toplamaq, treninq, seminarları, konfransları yerinə yetirir.

*2.4. Elmi-məlumat, elmi-tədqiqat fəaliyyətində AMK-nın və RDK-nın birgə calışmaları:*

2.4.1. Qarşılıqlı maraq daşıyan, sərbəst keçirilən lahiyələrin və elmi işlərin nəticələri haqqında məlumat barədə mübadilə aparır.

2.4.2. Birinci və ikinci dərəcəli göstəriciləri, lüğətləri və digər məlumat biblioqrafik nəşrləri çap edir.

2.4.3. Milli retrospektiv biblioqrafiyanın bibloqrafiyasını çap etdirir.

***3. Sazişin həyata keçirlməsində maliyyələşdirmənin əsas prinsipləri.***

3.1. Hazırkı Saziş çərçivə xarakteri daşıyır, AMK və RDK üzərində heç bir maliyyə öhdəçiliyi daşımır.

3.2. Maliyyə şərtləri və konkret plan, proqram və əməkdaşlıq layıhələri üzrə hesablama qaydaları əlavə saziş və razılaşmanın yenidən sövdələşməsinin predmeti olacaq.

***4. Sazişin müddəti***

4.1. Hazırkı Saziş RDK və AMK-nın imzalandığı gündən qüvvəyə minir, 5 il müddətinə qüvvədədir, müddəti bitdikdən sonra tərəflərin razılığı ilə uzadıla bilər. Əgər heç bir dəyişiklik, əlavələr və razılaşmanın fəaliyyətini dayandırmaq barədə təkliflər olmasa, həmin razılaşmanın fəaliyyəti avtomatik olaraq 5 il müddətinə uzadılır.

4.2. Saziş Tərəfin yazılı surətdə xəbərdarlığı əsasında dayandırıla bilər. RDK və AMK Sazişin fəaliyyətini dayandırmaq haqqında xəbərdarlığını göndərən gündən 3 aydan sonra ləğv olunur. Belə hallarda Sazişə tərəflərin qarşılıqlı razılaşması əsasında xitam verilir.

4.3. Saziş Azərbaycan və rus dilində 2 nüsxə tərtib olunur. Hər iki nüsxə eynidir və bərabər hüquqa malikdir.

**5. Tərəflərin ünvan və rekvizitləri**

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası
AZ 1000, Bakı şəhəri. Xaqani,29
El.poçt: contact@anl.az
Tel: +(994 12) 493-40-03
Faks: + (994 12) 498-08-22
Direktor

Tahirov Kərim Məhəmməd oğlu

Rusiya Dövlət Kitabxanasının Milli Kitabxanası
RF, 119019, Moskva, Vozdvijenka, 3/5
El.poçt: post@rsl.ru
Tel: +7(495) 697-18-60
Faks: +7(495)697-43-62
Baş direktor

Vislıy Aleksandr İvanoviç